**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **OKTYABR 2014**
**HÜQUQİ XİDMƏTLƏR**

**Vəkil-Müştəri Münasibətlərində Ünsiyyətin Məxfiliyi**

Vəkil-müştəri münasibətlərinin özəyini məxfilik prinsipi təşkil edir. Anqlo-sakson hüquq sistemində vəkil ilə müştəri arasında ünsiyyətin məxfiliyini təmin edən yanaşma vəkil-müştəri imtiyazı anlayışı adlanır və vəkilin müştəri əleyhinə ifadə vermək öhdəliyinin olmamasına əsaslanmışdır.

http://www.tms.org/pubs/journals/jom/matters/matters-9706.html

Vəkil-müştəri münasibətlərində məxfilik Azərbaycan Respublikasının Vəkillər və Vəkillik Fəaliyyəti ilə bağlı 28 dekabr 1999-cu il tarixli Qanunu ("Vəkillik haqqında Qanun"), Cinayət Prosessual Məcəlləsi, Mülki Prosessual Məcəllə və İnzibati Prosessual Məcəllə ilə tənzimlənir. Vəkillik haqqında Qanun vəkillər üçün məcburi olan qanunun aliliyi, müstəqillik, demokratiya, humanizm, ədalət, aşkarlıq və ***konfidensiallıq*** prinsipləri öz əksini tapmışdır.

Konfidensiallıq prinsipi vəkillər imkan verir ki, onlar öz vəzifələrini icra edən zaman məcburi və ya könüllü qaydada onlara məlum olan hallar barədə dindirilməsin, istintaq orqanlarına və ya məhkəmələrə vəkillər tərəfindən toplanmış sənədləri və digər sübutları təqdim etməsin (*Vəkillik haqqında Qanun, Maddə 7.III*). Bununla, Vəkillik haqqında Qanun müştərilərin məlumatları tam şəkildə çəkinmədən vəkillərə kommunikasiya etməsini həvəsləndirir, bu isə öz növbəsində vəkillərə müştəriləri effektiv şəkildə müdafiə etməyə şərait yaradır.

7.III maddədən göründüyü kimi məxfilik o halda tətbiq olunur ki, (1) məlumatın ötürüldüyü şəxs vəkildir, başqa sözlə, Azərbaycan Vəkillər Kollegiyasının üzvüdür və (2) məlumat vəkilin vəzifə səlahiyyətlərini icra etməsi ilə bağlı ötürülmüşdür. Vəkillə vəzifə səlahiyyətlərinin icrası ilə bağlı ötürülməyən məlumatlar məxfilik prinsipi ilə qorunmur. Qərb ölkələrində məlumat qorunması üçün müstəsna olaraq müştərini özü tərəfindən ötürülməlidir. Azərbaycanda vəkil tərəfindən müştərinin təmsil olunması ilə bağlı əldə edilən bütün məlumatlar məlumatın mənbəyindən asılı olmayaraq konfidensial saxlanmalıdır.

Məlumatın yalnız dəqiq müəyyənləşdirilmiş hissəsinin konfidensial saxlandığı Qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda müştəri tərəfindən vəkilə ötürülmüş bütün məlumatlar (şifahi, yazılı, e-mail vasitəsilə) konfidensial saxlanmalıdır (Vəkillik haqqında Qanunun 7.IV maddəsi).

Müstəsna hallarda məxfilik hüququndan imtina oluna bilər. Belə müstəsna hallar Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulmuşdur. Cinayət Prosessual Məcəlləsinin 92.10.2-ci maddəsinə əsasən, konfidensial məlumat aşağıdakı hallarda açıqlana bilər: 1) müştərini yeni cinayətin hazırlanması və törədilməsindən çəkindirmək üçün (cinayətin istisnası) və 2) müştəri vəkilə qarşı iddia ərizəsi ilə müraciət etdikdə (özünümüdafiə istisnası). Cinayət istisnası yalnız gələcək cinayət əməlinə şamil olunur və artıq törədilmiş cinayət əməlinə görə təqdim olunmuş məlumat məxfilik prinsipi ilə qorunur. Özünümüdafiə istisnası yalnız o həddə istifadə oluna bilər ki, vəkilə müştərinin arqumentlərinə cavab verməyə imkan yaratsın. Vəkil konfidensial məlumatdan öz xeyri üçün istifadə oluna bilməz.

Yuxarıda qeyd olunan istisnalardan savayı, konfidensial məlumat müştərinin icazəsi ilə açıqlana bilər.

Bəzi ölkələrdə imtiyaz vəkil-müştəri münasibətlərinə xitam verilməsindən, hətta müştərinin ölümündən sonra da qüvvədə qalır. Azərbaycan qanunvericiliyindən məlumatın hansı müddətə qorunması və müştərinin ölümünün məlumatın açıqlanması üçün əsas olması aydın deyil.

Vəkil və müştəri arasındakı münasibətlərdən fərqli olaraq, şirkət və onun daxili hüquqşünası arasında münasibətlər qanunvericiliklə tənzimlənmir və şirkət və onun daxili hüquqşünası arasında məlumatın məxfiliyinin qorunması üçün müqaviləyə ehtiyac var. Bu səbəbdən də, məhkəmə və ya istintaq orqanları tərəfindən belə məlumat tələb olunduqda, daxili hüquqşünas belə məlumatı açıqlamağa borcludur.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2014 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.